

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

26 OKTYABR 2024-cü il ŞƏNBƏ | № 236 (7994) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ





# Qarabağın hava qapısı, inkişaf simvolu

***Qarabağın gözəl guşəsi, Ərgünəş dağının əzəməti, Araz çayının zümzüməsi, gözəl təbii mənzərəsi, tarixi abidələri, yurd sevdalı insanları Füzuli torpağının ən böyük sərvətidir. Söz vaxtına çəkər, dörd il bundan əvvəl, oktyabr ayının ortalarında bu yerlərdə qanlı döyüşlər gedirdi, Azərbaycanın ər oğulları torpaqlarımızı işğalçılardan azad etmək üçün hünər göstərirdilər, hər tərəf barıt qoxuyurdu, güllələr, mərmilər göydə cövlan edirdi, ərənlərimiz addım-addım, qarış-qarış irəliləyir, düşmənin başını əzir, sözün əsl mənasında, qəhrəmanlıq dastanı yazırdılar. Düz dörd ildir ki, xalqımız haqlı olaraq qürur, iftixar və doğma torpaq sevincini yaşayır.***

Qırx dörd günlük müharibə Azərbaycanın hərbi gücünü, Silahlı Qüvvələrimizin rəşadətini, qəhrəmanlığını, xalqımızın birliyini, Qalib Ali Baş Komandan İlham Əliyevin əzmini, fədakarlığını göstərdi. Xalq bir yumruq kimi birləşdi, ordumuz düşmənə sarsıdıcı zərbələr endirdi, bir vaxtlar qürrələnən, mif yaradan haylar dovşan kimi qaçmağa məcbur oldular, müqavimət göstərənlər isə məhv edildi, silah-sursat, hərbi texnika qənimət kimi götürüldü, separatçıların tör-töküntüləri torpağımızdan birdəfəlik qovuldular. Qəhrəman ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyat nəticəsində, Vətən müharibəsinin iyirminci günündə, 2020-ci il oktyabrın 17-də Füzuli şəhəri daxil olmaqla rayonun 62 yaşayış məntəqəsi işğaldan azad edildi.

Qeyd edək ki, Füzuli uğrunda gedən döyüşlər İkinci Qarabağ müharibəsinin cənub-şərq cəbhəsində ən mühüm döyüşlərindən biri idi. Uğurlu Füzuli əməliyyatı ilə, həmçinin, Cəbrayıl və Xocavənd rayonlarının da bir sıra yaşayış məntəqələri ordumuzun bölmələri tərəfindən azad edildi. Əlbəttə ki, Füzulinin azad edilməsi hərbçilərimizin böyük peşəkarlığı, məharəti və fədakarlığı sayəsində mümkün oldu. Müzəffər Silahlı Qüvvələrimizin şəxsi heyətinin fədakarlığı sayəsində döyüş meydanında düşməndən xalqımızın qisası alındı və həlak olanların qanı yerdə qalmadı. Azərbaycanın Vətən müharibəsində düşmən üzərində qalib gəlməsindən 6 gün sonra - 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilən Füzuli rayonunda oldular. Qalib Ali Baş Komandan İlham Əliyev Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırdı. Bu qürurverici görüntülər Azərbaycanın müasir tarixinin ən şərəfli səhifələrindən biridir. Qarabağa və Şərqi Zəngəzura xalqımızın dözümü, iradəsi, birliyi, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtdıq. Bir daha qeyd edək ki, Vətən müharibəsi xalqımızın monolit birliyini, hünərini, əzmini, haqqını və mübarizəsini bütün dünyaya göstərdi. Bu tarixi zəfər xalqımızın şərəfini və qürurunu özünə qaytardı.

Tarixi qələbədən sonra işğaldan azad edilən torpaqlarda düşmənin 28 il ərzində basdırdığı saysız-hesabsız minaların təmizlənilməsinə başlanılıb və gizli düşmənə qarşı bu çətin, eyni zamanda təhlükəli axtarış-xilasetmə işləri uğurla davam etdirilir. İşğaldan azad edilən yurd yerlərinə gedəndə bir tərəfdə erməni barbarlığının, digər tərəfdə isə qalib Azərbaycan xalqının qurub-yaratmaq əzminin şahidi oluruq. Azad edilən rayonların ərazilərində iri infrastruktur layihələrin icrası uğurla davam etdirilir, birbirinin ardınca həyat əhəmiyyətli və müasir texnologiyalarla inşa edilən yolların, hava limanlarının, enerji qovşaqlarının, aqroparkların, "ağıllı kənd"lərin, turizm obyektlərinin açılışları gələcəyin xoş günlərindən xəbər verir.

**(davamı 3-cü səhifədə)**

# Qarabağın hava qapısı, inkişaf simvolu

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Vətən müharibəsində ildırım sürətli döyüş əməliyyatları ilə işğalçıları torpaqlarımızdan necə qovmuşdusa, indi də həmin sürətlə, yüksək əhval-ruhiyyə ilə, öz gücünə arxalanaraq Qarabağı və Şərqi Zəngəzuru dirçəldir, düşmənin viran qoyduğu yerlərdə müasir şəhərlər, kəndlər salınır.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda üç hava limanı fəaliyyət göstərir, Laçında isə aeroportun tikintisi başa çatdırılır. Bəzən sual yaranır ki, məsafəcə bir-birinə yaxın olan ərazilərdə dörd hava limanı hansı məqsədi daşıyır. Cavab çox sadə və həm də mənalıdır. Həmin hava limanları iqtisadi, hərbi, strateji baxımdan mühüm əhəmiyyət kəsb edir, hər iki bölgənin alınmaz qalaya çevrilməsində və gələcək taleyində müstəsna rola malikdir. Şərəfli və əzəmətli qələbədən 9 ay sonra Qarabağın hava qapısı hesab edilən, böyük strateji əhəmiyyətə malik Füzuli Hava Limanının istifadəyə verilməsi ağır müharibədən çıxmış ölkənin iqtisadi durumu haqqında dolğun təsəvvür yaratdı, dövlətimizin gücünü və iradəsini nümayiş etdirdi.









Xatırladaq ki, Füzuli Beynəlxalq Hava Limanının tikintisinə 2021-ci ilin yanvar ayında başlanılıb. Qısa müddət ərzində hava limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilib. Bu isə hava limanında Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılıb. Burada sərnişinlərin rahatlığı üçün bütün meyarlar çox böyük zövqlə yerinə yetirilib. Həmin il sentyabr ayının əvvəllərində ilk sınaq uçuşları həyata keçiriləndən sonra hava limanı həm sərnişin, həm də yük təyyarələrini qəbul etməyə başlayıb.

Beləliklə, ən müasir tələblərə cavab verən beynəlxalq hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonların tezliklə bərpa olunacağını və oraya yenidən həyatın qayıtmasını göstərir. Bu hava limanının istifadəyə verilməsi bölgəyə səfər edənlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuğun daha da sürətlənməsinə töhfə verir, nəinki Füzulinin, ümumilikdə bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayır. 2021-ci il oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak ediblər.

Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsindən əvvəl, 2021-ci il sentyabrın 5-də Bakıdan uçan "Azərbaycan Hava Yolları"na məxsus ən böyük "Airbus A340-500" tipli və simvolik olaraq "Qarabağ" adını daşıyan sərnişin təyyarəsi sınaq reysi həyata keçirərək, işğaldan azad olunan Qarabağın ilk hava limanına eniş etdi. Bundan əlavə, Azərbaycanın "Silk Way" aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan "Boeing 747-400" tipli hava gəmisi Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklər çatdırdı. Bu, onu göstərir ki, hava limanı həm də yükdaşımalar, xüsusən beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərimizin sənaye potensialını nəzərə alsaq, Füzulidə açılan hava limanı həm də Qarabağda istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından olduqca vacibdir. Qarabağın ilk hava limanına beynəlxalq status verilib və beləliklə, Füzuli aeroportu beynəlxalq uçuşlar üçün açıqdır və bölgədə turizm potensialının inkişafına töhfə verir.

Füzuli Beynəlxalq Hava Limanı bu gün təkcə nəqliyyat qovşağı deyil, həm də Qarabağ regionunun inkişaf simvoludur. Bu hava limanı Zəfər Yolunun qapısı və Şuşa şəhərinə gedən əsas nəqliyyat qovşaqlarının açarıdır. Füzuli aeroportu qısa müddət ərzində bir çox hökumət başçılarını, dövlət və xarici beyin mərkəzlərinin yüzlərlə nümayəndəsini qəbul etmişdir ki, bu da onun strateji əhəmiyyətini və regionun gələcək inkişaf perspektivlərini göstərir. Heç uzağa getməyək, Füzuli Beynəlxalq Hava Limanı Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü çərçivəsində 40-dan çox reys qəbul edib və yola salıb. Onların sırasında 10-dan çox təyyarə növü var idi: Gulfstream V, Falcon 7X, Airbus 319, 320, Embraer 190, geniş gövdəli İL-96, Airbus 330, 340 və Boeing 787 kimi hava gəmilərinin Füzuli aeroportuna uğurlu enişi, onun müxtəlif tipli təyyarələri qəbul etmək qabiliyyətini, müasir texnoloji səviyyəsini və beynəlxalq standartlara uyğunluğunu bir daha təsdiq etdi. Bu gün Qarabağın hava qapısı olan Füzuli Beynəlxalq Aeroportu bölgənin iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynayan nəqliyyat-logistika mərkəzinə çevrilib. İyulun 17-dən etibarən Azərbaycanın milli aviadaşıyıcısı AZAL-ın Qarabağa müntəzəm reyslərinin başlanması ilə bu regionun Azərbaycan və dünya ilə daha da sıx inteqrasiya edilməsi istiqamətində yeni bir mərhələ başlanıb. Bu həm də Qarabağın gələcək inkişafı və onun turizm potensialının artırılması baxımından böyük əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş Füzulidə həyata keçirilən bu möhtəşəm layihəyə və əlamətdar hadisə ölkəmizin siyasi-hərbi və iqtisadi qüdrətini bir daha təsdiq etdi. Bəlkə də dünyanın heç bir yerində belə qısa müddətdə hava limanı inşa edilməyib. Füzuli hava limanının tikildiyi ərazi Azərbaycan igidlərinin yağı düşmənin başını əzdikləri döyüş meydanı idi və bu gün həmin ərazi Qarabağın dünyaya açılan hava qapısına çevrilib. Çox qürurverici səhnə və tarixi bir səhifədir. Prezident İlham Əliyev 2021-ci il yanvarın 14-də həmin aeroportun təməlini qoyanda demişdi ki, bu hava limanının əsas məqsədlərindən biri də xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də uzaq deyil. Qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər.

Məhz buna görə də Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən xarici turistlərin sayı kifayət qədər çoxdur. Ümumiyyətlə, Füzuli hava limanının inşası işğaldan azad edilmiş ərazilərimizdə müasir kommunikasiyaların qurulması sahəsində həyata keçirilən, iqtisadi, strateji baxımdan dəyərli olan yeganə layihə deyil. Azərbaycanın tarixi torpaqlarında Böyük Qayıdış üçün vacib sayılan çox mühüm strateji layihələr icra olunur. Mübaliğəsiz demək olar ki, Füzuli Beynəlxalq Hava Limanı Qarabağın inkişaf dastanının yazılmasında birinci səhifədir, bu dastanın sonrakı səhifələri də uğurla, əminliklə, yüksək inamla yazılır. 30 ilə yaxın mənfur düşmənlərin əli ilə sinəsinə mina əkilən torpaqlarımız bu gün rahat nəfəs alır, indi onların basdırdıqları ölümsaçan minalar axtarılıb çıxarılır, yerində isə güllər, ağaclar əkilir, evlər inşa edilir. Bu gün Azərbaycan 10 min kvadratkilometr ərazidə yeni həyat qurur. Cəbrayıl şəhərinə səfəri zamanı qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi sözlər işğaldan azad edilən ərazilərdə aparılan işlərə ən yüksək qiyməti və dəyəri ifadə edir: "Dağıdılmış, yerlə-yeksan edilmiş bu bölgələr hazırda qardaşım İlham Əliyevin liderliyi ilə bənzərinə az rast gəlinən böyük bir inkişaf ilə yenidən dirçəlir. Körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edilir. İndi biz bunları yaşayırıq, görürük. Eşidərək deyil, görərək bu ifadələri işlədirik. Bu, təbii ki, başda qardaşım İlham Əliyev olmaqla, bütün komandası ilə əl-ələ verərək atdıqları addımlar, gördükləri işlərlə bu qədər qısa müddətdə Azərbaycan, necə deyərlər, burada sıfırdan başlayaraq yenidən ayağa qalxır".

Qeyd edək ki, Füzuli aeroportu dünyada ən qısa müddətdə inşa edilən beynəlxalq hava limanlarından hesab olunur. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Füzuli Beynəlxalq Hava Limanı "Qarabağın hava qapısı" elan olunub. Bu isə ondan xəbər verir ki, sözügedən hava limanının istifadəyə verilməsi bir tərəfdən Qarabağın, digər bölgələrimizin, eyni zamanda daha geniş anlamda dünya ilə əlaqələrin daha genişləndirilməsinə imkan verəcək.

**Salman ALIOĞLU,**
**"Respublika".**